


# Müstəqillik illərində Azərbaycan kinosunun mətbuatda əksi

Şəbnəm MƏMMƏDOVA,
*ADMİU-nun Ədəbiyyat və Azərbaycan dili kafedrasının magistri*

On beş ildən bəridir ki, Azərbaycan kinosu, bir növ ölüm ayağında olan xəstəni xatırladır. Onu dirçəltməyə nə qədər cəhd edilsə də, heç bir nəticə vermir. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri vardır. Əvvəla, SSRİ kimi böyük bir imperiyanın caynağından qopmuş Azərbaycan dövləti çox ciddi siyasi proseslə üzləşdi. Müharibə, dövlətçiliyə edilən aramsız qəsdlər bütövlükdə mədəniyyəti arxa plana keçirmişdi.

Güclü maliyyə axını dayanmışdı. Prokat məkanı məhv olunmuşdu, filmlərin istehsalı üçün heç bir şərait qalmamışdı.

Heydər Əliyevin hakimiyyətə qayıdışı kinematoqrafiyaya da öz təsirini göstərdi. Dağılma prosesi səngidi, kinonun böhrandan xilas olması üçün xüsusi komissiya hazırlandı. O vaxtlar kino siyasətini həyata keçirən qurum «Azərkinovideo» istehsalat birliyi idi. Bu dövrdə bölgələrdə mövcud film bazarları dağıdılmış, avadanlıqlar tamamilə sıradan çıxmışdı. 1993-cü ildə artıq Dağlıq Qarabağ və yeddi rayonun kinoqurğuları erməni işğalçılarının əlinə keçmişdi. «Azərkinovideo» istehsalat birliyinin əsas xidmətlərindən biri də o oldu ki, MDB məkanında Rusiyadan sonra ikinci olaraq kino haqqında qanun hazırladı. Həmin sənəd 1998-ci ildə Milli Məclis tərəfindən qəbul edildi. Bu qanun ölkədə kino prosesinin hüquqi cəhətdən tənzimlənməsi üçün, bir növ, stimul yaratdı və kinonun inkişafına öz «müsbət» təsirini göstərdi.

1993-cü ildən başlayaraq dövlət filmlərin istehsalı üçün sifariş verməklə, bir növ milli kinonun dəstəklənməsi prosesini bərpa etdi. «Mənim ağ şəhərim» bu filmlərdən ilki idi. Sumqayıtın ekoloji durumu ilə bağlı lentə alınan bu film o qədər yüksək bədii keyfiyyətlərə malik olmasa da, burada müəyyən yenilik əlamətləri var idi.

«Özgə vaxt», «Ağ atlı oğlan», «Sarı gəlin», «Nə gözəldir bu dünya», «Ovsunçu», «Məkanın melodiyası», «Küçələrə su səpmişəm», «Yalan» kimi filmlər meydana gəldi.

Tədqiq olunan dövrdə, yəni 90-cı illərdə və 2002-ci ilə kimi Azərbaycanda 30-dan artıq tammetrajlı və qısametrajlı bədii film çəkilmişdir. Bu filmlərin arasında elələri olub ki, nəinki Azərbaycan-



***Kinematoqrafiya komitəsi sovet dövründə Azərbaycanın ən yüksək təchizat imkanlarına malik dövlət qurumlarından idi. O dövrdə mövcud kino obyektlərini xatırlatmaq istəyirəm. Yüksək texniki və kadr təminatı olan kinostudiya, təchizat bazası, istehsalat kombinatı, minlərlə filmlərin saxlanıldığı kinoprakat idarələri, ən yeni texnika ilə təchiz olunmuş müasir tipli kinoteatrlar və s. Bu siyahını uzatmaq da olar. Amma bu gün onların hansı vəziyyətdə olduğuna nəzər yetirsək, çox acınacaqlı bir mənzərə ilə qarşılaşırıq.***

da, eyni zamanda ölkənin hüdudlarından çox-çox kənarlarda da uğurla nümayiş etdirilmiş, hətta mükafatlara layiq görülmüşlər.

Bu dövrdə respublikamızda buraxılan qəzet və jurnalların sayı da xeyli çox olmuşdur. «Xalq qəzeti», «Azərbaycan», «Ədəbiyyat», «İncəsənət», «Üç nöqtə», «Press-fakt», «Kino», «Azadlıq», «Tanıtım», «525-ci qəzet», «Zerkalo», «Ayna», «Exo» və s. Lakin həmin illərdə ölkənin həyatında baş verən ictimai-siyasi hadisələr, erməni təcavüzü, Qarabağ müharibəsi, SSRİ dağılandan sonra respublikamızın müstəqillik əldə etməsi, Azərbaycanın bazar iqtisadiyyatına keçməsi və s. mühüm siyasi hadisələr mətbuatın əsas diqqət mərkəzində olduğu üçün mədəniyyət və incəsənət məsələləri ikinci planda saxlanılmış, diqqət mərkəzindən kənarda qalmışdır. Hətta elə informasiya vasitələri vardır ki, kino sənəti ilə bağlı aylarla bircə məqalə belə dərc etdirməmişdir. Digərlərində isə müntəzəm olmasa da, vaxtaşırı kino işləri, kino sənəti, kinematoqrafçılar, dünya kinosunda baş verən hadisələrlə əlaqədar müxtəlif janrlı yazılar çap olunmuşdur. Yeni filmlərin çəkilişi ilə bağlı resenziyalara isə nadir hallarda rast gəlmək olur. Hətta «Kino» qəzetində də yüksək səviyyəli yazılara az-az rast gəlirik. «Kino» qəzetinin ayrı – ayrı kinematoqrafçılara – rejissorlardan O.Mirqasımova, A.Babayevə, T.Tağızadəyə, M.Dadaşova, kinodramaturqlardan Anara, R.İbrahimbəyova, aktyorlardan R.Balayevə, Ş.Məmmədovaya və başqalarına həsr etdiyi xüsusi buraxılışlar diqqəti cəlb edir.

Elə filmlər var ki, onların ətrafında daha çox söhbət getmiş, qəzetlərdə müxtəlif yazılar çap olunmuşdur. Məsələn, rejissor J.Mirzəyevin «Fəryad» bədii filmi haqqında «Kino» qəzetində «Fəryad», «Qobustan» jurnalında «Fəryad», rejissor Y.Rzayevin «Sarı gəlin» bədii filmi barədə «Qobustan» jurnalında «Sarı gəlin», «7 gün» qəzetində «İdiot»un «Sarı gəlin»i, rejissor V.Mustafayevin «Hər şey yaxşılığa doğru» bədii filmi haqqında «Teleforum» jurnalında «Hər şey yaxşılığa doğru», «Avrasiya» qəzetində «Hər şey yaxşılığa doğru», «Qobustan» jurnalında «Hər şey yaxşılığa doğru», rejissor R.İbrahimbəyovun «Ailə» bədii filmi ilə bağlı «Kino» qəzetində «Ailə gizlinləri», «Musavat» qəzetində «Rüstəm İbrahimbəyovun «Ailə»sinə 150 min dollar xərc çəkilib», «Qobustan» jurnalında «Ailə», rejissor R.Ocaqovun «Otel otağı» bədii filmi ilə əlaqədar

«Qobustan» jurnalında «Otel otağı», «Musavat» qəzetində «Ucuz ölüm», rejissor O.Mirqasımovun «Ovsunçu» bədii filmi barədə «Üç nöqtə» qəzetində «Stallone Bəxtiyar Xanızadənin əlinə su tökməyə layiq deyil», «Həftə içi» qəzetində «Ovsunçu» ovsunlamağı bacardı» və s. məqalələr çap olunmuşdur. Lakin tədqiq olunan dövr üçün bütün bunlar çox azdır.

Beləliklə, dövri mətbuatda filmlərin işıqlandırılması ilə əlaqədar qarşıya çıxan problemləri araşdırarkən belə bir nəticəyə gəlmək olar. Birincisi, ötən əsrin sonunda SSRİ-nin süqutu ilə əlaqədar Azərbaycanda gedən ictimai-siyasi hadisələr – cəmiyyətin həyatında gedən proseslər, baş verən böhranlar burulğanında mətbuat orqanlarının istiqamətlərini əsasən siyasi yönümdə qurmaları mədəniyyət və incəsənət, o cümlədən kinematoqrafın da arxa plana düşməsi ilə bağlıdır. İkincisi, kino sənətindən yazan jurnalistlərin bu sahədə səriştələrinin ya olmaması, ya da bu məsələləri dərindən bilməmələri ilə bağlıdır. Deməli, kino kimi incəsənət növü haqqında sözü kinomütəxəssislər, kinoşünaslar, kino tənqidçiləri deməlidirlər.


Ədəbiyyat

1. *"Xalq qəzeti", 1995-2002-ci illər.*
2. *"Azərbaycan" qəzeti, 1995-2002-ci illər.*
3. *"525-ci qəzet", 1999-2001-ci illər.*
4. *"Exo" qəzeti, 2000-2002-ci illər.*
5. *"Zerkalo" qəzeti, 2000-2002-ci illər.*
6. *"Ədəbiyyat" qəzeti, 1994-2002-ci illər.*
7. *A.Kazımzadə. Azərbaycan kinosu (Filmlərin izahlı kataloqu - 1898-2002), I-II c. B. 2003.*



**Təqdim etdi: ADMİU-nun Ədəbiyyat və Azərbaycan dili kafedrası - 15.02.2007**
**Rəyçi: filologiya elmləri doktoru, professor A.Babayev**


**In the years of independence reflection of Azerbaijan's cinematographic in the press**

**Resume**


The films which moved in the years independence in our republic and its propoganda and investigation have been put in the centre of attention in this article.


**Освещение в средствах массовой информации азербайджанских фильмов, снятых в годы суверенитета**

**Резюме**


Статья излагает размышления о фильмах, снятых за годы суверенитета и освещения в средствах массовой информации проблем, анализирует и определяет пути их разрешения.